

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (21.758)

23 may 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin yeni sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanda son illərdə gedən proseslər, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və onun perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırkı vəziyyət, insan haqları, fikir azadlığı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Abu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Şeyx Abdullah bin Zayed Al Nahyanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



## Naxçıvan Əlillərin Bərpa Mərkəzinə xüsusi nəqliyyat vasitəsi və texniki reabilitasiya avadanlıqları verilib





*Mayın 20-də "Nəqşicahan-Med" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Əlillərin Bərpa Mərkəzinə xüsusi nəqliyyat vasitəsi və texniki reabilitasiya avadanlıqları təqdim olunub.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, muxtar respublikada sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər görülür. Bu kateqoriyadan olan şəxslərin sosial təminatının yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılır. "Nəqşicahan-Med" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Əlillərin Bərpa Mərkəzinə təqdim edilən xüsusi nəqliyyat vasitəsi və texniki reabilitasiya avadanlıqları da bu sahədə görülən işlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Seymur Talıbov tədbirdə çıxış edərək deyib ki, muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində davamlı olaraq sosial tədbirlər həyata keçirilir. "Nəqşicahan-Med" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Əlillərin Bərpa Mərkəzinə təqdim olunan xüsusi nəqliyyat vasitəsi və texniki reabilitasiya avadanlıqları da dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərə dəstək olmaq məqsədi daşıyır. İnanırıq ki, xüsusi nəqliyyat vasitəsi və texniki reabilitasiya avadanlıqları səmərəli istifadə olunmaqla mərkəzin fəaliyyətinə öz töhfəsini verəcəkdir.

Naxçıvan Əlillərin Bərpa Mərkəzinin baş həkimi Mətanət Səfərova göstərilən qayğıya görə minnətdarlıq edib.

Sonra məhdud fiziki imkanlı şəxslərin daşınmasını həyata keçirən avtonəqliyyat vasitəsi, xüsusi əlil arabası, ortopedik və havalı döşəklər, aşağı ətraflarda konturakturası olan reabilitasiya vasitəsi, velotrenajor, süni nəfəs aləti, portativ paralel qollar idman aləti və ilk tibbi yardım çantası mərkəzə təqdim olunub.

**"Şərq qapısı"**




## Naxçıvan Dövlət Universiteti milli reytinq tədqiqatlarının nəticələrinə əsasən ölkəmizin ali məktəbləri arasında yenidən birinci yerə layiq görülüb

***Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatının (AKTAM) ali məktəblərdə tədrisin keyfiyyətini qiymətləndirmək məqsədilə apardığı milli reytinq tədqiqatlarının nəticələrinə əsasən Naxçıvan Dövlət Universiteti reytinqin ali məktəblərin 2015-2016-cı ilin göstəricilərinə əsasən 827 balla Azərbaycanda fəaliyyət göstərən 19 dövlət, 9 qeyri-dövlət ali təhsil müəssisəsi arasında birinci yerə layiq görülüb.***

Mayın 20-də Naxçıvan Dövlət Universitetində bu münasibətlə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək qeyd edib ki, Naxçıvan Dövlət Universiteti Azərbaycanın ali təhsil ailəsinin öndə gedən üzvlərindən biridir. Azərbaycanda ən böyük universitet şəhərciyi olan bu ali təhsil ocağının 108 hektarlıq ərazisində yeni tikilmiş, ən son texnoloji avadanlıqlarla təchiz olunmuş və yüksək maddi-texniki bazaya malik 16 tədris korpusu fəaliyyət göstərir. 80-dən çox dünya universiteti ilə elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi olan universitet 2011-ci ildən "Erasmus Mundus" və "Erasmus Humeria" layihələrinə qoşulub. Naxçıvan Dövlət Universiteti həmçinin 7 Tempus layihəsinin də iştirakçısıdır.



Naxçıvan Muxtar Respublikasında elm və təhsilə göstərilən dövlət qayğısından ətraflı danışan Saleh Məhərrəmov Naxçıvan Dövlət Universitetinin Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri arasında birinci yerə layiq görülməsi münasibətilə professor-müəllim heyətini təbrik edib.

Universitetin tədris işləri üzrə prorektoru Surə Seyid ali məktəblərdə tədrisin keyfiyyətini qiymətləndirmək məqsədilə aparılan milli reytinq tədqiqatları haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, tədqiqatların aparılmasının əsas məqsədi qərar qəbul etmək üçün ictimaiyyətə informasiyanın təqdim edilməsi, ali təhsil müəssisələrinin inkişafının stimullaşdırılması və bu sahədə rəqabət mühitinin yaradılmasına kömək etməkdən, ali məktəblərdən daxili keyfiyyətə nəzarət mərkəzlərinin yaradılmasına və inkişafına təkan verməkdən ibarətdir. Reytinqin aparılması üçün 3 kateqoriya müəyyən edilib. Birinci kateqoriyada ali məktəbin akademik resursları, ikincidə ali məktəbin daxildən müəllimlər və tələbələr tərəfindən qiymətləndirilməsi, üçüncüdə isə ali məktəbin ölkə ictimaiyyəti tərəfindən, mərkəzi və regional icra orqanları, böyük, orta və kiçik kampaniyalar tərəfindən qiymətləndirilməsidir. Surə Seyid hər üç kateqoriya haqqında ətraflı məlumat verərək Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi layihəsinin beynəlxalq təcrübəyə və metodlara əsaslanan genişmiqyaslı layihə olduğunu qeyd edib.

Universitetin Kimya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Tofiq Əliyev "Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat işlərinin yerinə yetirilməsinin səviyyəsi", Sosial idarəetmə və hüquq fakültəsinin 4-cü kurs tələbəsi Surə Qurbanova "Naxçıvan Dövlət Universitetində tələbə-gənclərə göstərilən qayğının təzahürü" mövzularında çıxış ediblər.

Rektor Saleh Məhərrəmov iclasa yekun vuraraq qeyd edib ki, Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti bundan sonra da ölkəmizdə yüksəkixtisaslı kadr potensialının formalaşmasına öz töhfəsini verəcəkdir.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti 2014-cü ildə də AKTAM-ın ölkənin 30 ali məktəbinin çoxkriteriyalı, beynəlxalq standartlara uyğun hazırladığı reytinq cədvəlində birinci yer tutub.

**"Şərq qapısı"**

*Muxtar respublikamızın dilbər guşələrindən biri olan Ordubad ötən illərdə bu bölgəyə davamlı dövlət qayğısı hesabına müasir Azərbaycan rayonuna çevrilib. Hazırda Ordubad rayonunun Üstüpü kəndində kompleks quruculuq tədbirləri aparılır.*

## Yeni quruculuq ünvanları



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları kənddə zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət 340 şagird yerlik məktəb binasının və kənd mərkəzinin tikintisində çalışırlar.

Məktəb binasının zirzəmisində, birinci mərtəbəsində beton işləri yekunlaşdırılıb. Yeni binada müəllim və şagirdlərin ixtiyarına işıqlı sinif otaqları, kimya, biologiya, fizika laboratoriyaları, elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri, idman zalı, bufet veriləcək.

Kənd mərkəzi binasının birinci mərtəbəsində isə qəlib işləri aparılır. Yaxın günlərdə burada xidmət mərkəzinin inşasına da başlanılacaq.

Kənddə digər abadlıq işlərinin də aparılması, kənddaxili yollara asfalt salınması nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

*Jurnalistin qeydləri*

# Zəhmətin bəhrəsi torpaqdadır

***Yaranışından insan övladı ruzisini torpaqdan qazanıb. Torpağa sığınıb, ondan güc alıb və ona Vətən deyib. Vətən deyib qoruduğu torpağı alın təri, əl qabarı ilə gülüstana çevirib. Doyub, dolanıb, maddi nemətlər bolluğu yaradıb. Beşikdən qəbrə qədər belə bir ömür yolu keçən insan övladı axırda yenə də torpağa qovuşub. Deməli, varlığımızın da, yoxluğumuzun da məkanı torpaqdır.***

Azərbaycanın, eləcə də muxtar respublikamızın iqtisadi cəhətdən möhkəmlənməsi, inkişaf etməsi üçün uzaq perspektivdə nəzərdə tutulan müəyyən hədəflər vardır. Bu hədəflərə çatmaq üçün mərhələli şəkildə həyata keçirilən bir sıra islahatlar mahiyyət etibarilə ərzaq təhlükəsizliyinə nail olmaq, əhalini keyfiyyətli məhsullarla təmin etmək, təbiəti zənginləşdirmək, ekoloji tarazlığı qorumaq, ixrac imkanlarını genişləndirmək məqsədinə xidmət edir. Bu yol ulu öndərimiz Heydər Əliyevin uzaqgörənliklə başladığı torpaq islahatlarının uğurlu nəticələri ilə açıldı. Müstəqil Azərbaycan iqtisadi böhran vəziyyətindən çıxdı. İllər keçdikcə gözümüzdə adiləşən islahatların yerini irimiqyaslı dövlət proqramları tutmağa başladı. Dövlət proqramlarının qəbul olunması ilə perspektiv planlar müəyyənləşdirildi və işlər bu istiqamətdə aparıldı. Kəndliyə, torpaq adamına, sahibkara yerli məhsulların istehsalını artırmaq üçün ən yüksək səviyyədə dövlət qayğısı göstərildi. Bu qayğıdan ruhlanan kəndli də "öldür məni, dirildim səni",– deyən torpağı imkanı çatdıqca heşan etməyə, alın təri axıtmağa, yaxşı məhsul götürməyə səy göstərdi. Torpaqlar vaxtında əkildi, becərildi, suvarıldı, gübrələndi. Zəhmətin bəhrəsini görən kəndli, beləcə, torpağın əsl sahibinə çevrildi.

Muxtar respublikamızda da kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı məqsədilə dövlət proqramlarının qəbul edilməsi öz bəhrəsini verir. Artıq bazarlarımızda sağlamlığımıza balta çalan, geni dəyişdirilən, dadsız-tamsız məhsulların yerini dadlı-tamlı yerli məhsullar tutub. Hər birimizə bəllidir ki, bir neçə il bazarlardan evlərimizə zənbil-zənbil "dərd-bəla" daşımışıq. Damaq dadımıza yad olan, sağlamlığımızı əlimizdən alan idxal meyvə-tərəvəzi, bostan məhsullarını üzümüzü turşudaraq, əlacsız qalıb yemişik və sağlamlığımıza zərbə vurmuşuq. Yad ellərdən süfrələrimizə ayaq açan məhsulları yeyəndə illər öncə damağımıza dad verən yerli sortlardan əlçatmaz bir xatirə kimi söhbət açırdıq. Yerli sortların toxumlarının itib batdığına, yox olduğuna təəssüflənərək günahkar axtarırdıq. Amma günahkarın elə özümüz olduğunu unutmuşduq. Şükürlər olsun ki, bu tendensiyanın qarşısı alınıb. Yerli məhsulların istehsalını artırmaq üçün qəbul olunan dövlət proqramları sayəsində indi muxtar respublikamızda qədim sortların əldə edilməsi və əkilməsi həsrətində olduğumuz o tamı dadmağımıza imkan yaranıb.

Bu yerdə bir cəhəti də xüsusilə vurğulamaq lazımdır ki, muxtar respublikamızda meyvəçilikdə, əkinçilikdə, heyvandarlıqda, quşçuluqda, maldarlıqda, tərəvəzçilikdə, arıçılıqda özünü doğrultmuş mütərəqqi üsullardan istifadə qəbul olunan dövlət proqramlarında qarşıya qoyulan əsas vəzifələrdəndir.

Oxucularımıza dövlət proqramlarının kənd sakinləri üçün əhəmiyyətini sadə bir nümunə ilə açıqlamaq istəyirəm. Deyək ki, Şahbuz rayonunda bir neçə sakin arıçılıqla məşğul olmaq istəyir. Bu istəyin reallaşması üçün məlumdur ki, həmin şəxs xeyli vəsait xərcləməklə yanaşı, həm də günlərlə vaxt sərf etməlidir. Amma arıçılığın inkişafı ilə bağlı "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın qəbul olunması həmin şəxsin həm vəsaitə, həm də vaxta qənaət etməsinə, o cümlədən ona lazımi köməkliyin göstərilməsinə şərait yaradır. Çünki bu proqramda qarşıya qoyulan vəzifələrin icrası üçün aid qurumlar öz üzərlərinə düşən işi yerinə yetirməyə çalışırlar. Arıçılıq təsərrüfatı yaradanlara lazımi dəstəyin göstərilməsi – kreditlərin ayrılması, arı ailələrinin verilməsi, xəstəliklərə qarşı mübarizə tədbirlərinin aparılması üçün zəruri dərman preparatlarının təminatı, o cümlədən



istehsal olunan məhsulun satışının təşkili müəyyən qurumlar tərəfindən həyata keçirilir. Deməli, qalır həmin vətəndaşın qol çırmayıb işə girişməsi.

Muxtar respublikamızda meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün, taxılçılığın, kartofçuluğun, o cümlədən heyvandarlığın, maldarlığın, quşçuluğun inkişaf etdirilməsi məqsədilə Ali Məclis Sədrinin uzaqgörənliklə təsdiq etdiyi dövlət proqramlarının mahiyyətini qısaca olaraq təhlil edərkən bu sahələrin bir-biri ilə sıx əlaqəli olduğunu görə bilərik. Arıçılığın inkişafı həm də bağlardan yaxşı məhsul götürülməsinə təsir göstərən ən güclü amildir. Əkin sahələrinin genişləndirilməsi, meyvə bağlarının salınması arıların yaxşı bal toplamasına, həmçinin baltutarların zənginləşdirilməsinə imkan verir. Bu sahələrin inkişafı heyvandarlıqda yem bazasının möhkəmləndirilməsinə də öz təsirini göstərəcəkdir. Belə ki, Şahbuz kimi dağlıq ərazidə yerləşən və ilin 6 ayının soyuq keçdiyi yerlərdə heyvandarlar, maldarlar mövsüm ərzində güclü yem bazası yaratmalıdırlar. Məlumdur ki, arpa, buğda zəmilərinin çoxluğu küləş istehsalına, qarğıdalı əkinlərinin çoxluğu silosluq yem bazasının yaranmasına imkan verir. Beləcə, xırdalıqlarına kimi təhlil aparsaq, təkcə Şahbuz rayonunda dövlət proqramlarının qarşıya qoyduğu vəzifələrin icrasının kənd təsərrüfatının bütün sahələrinin inkişafına necə təsir etdiyini təsəvvür edə bilərik. Məlumdur ki, aqrar sahənin inkişafında suvarmanın da rolu əvəzsizdir. Ona görə də deyə bilərik ki, muxtar respublikamızda qəbul olunan dövlət proqramları mahiyyət etibarilə bir-birini tamamlayır.

Muxtar respublikamızda innovasiyaların tətbiq olunması, mütərəqqi suvarma üsullarının yaradılması, rentabelli suvarma şəbəkəsinin qurulması əkinçiliyin inkişaf etdirilməsinə, torpaqlardan və su ehtiyatlarından səmərəli istifadəyə təminat yaradır. Şahbuz rayonunda da suvarma suyuna olan tələbatın ödənilməsi üçün son illərdə onlarla nasos stansiyaları qurulub və suvarma şəbəkəsi yaradılıb. Bu isə əkinçini razı salır. Ayrınc kənd sakini Eldar Həsənovun redaksiyamıza göndərdiyi minnətdarlıq məktubundan bir hissəni təqdim edirəm: "Elə bil 70 ilin ağrı-acısına, arxların "dərd-sərinə" indi məlhəm qoyulub. Su üstə qonum-qonşu illərlə küsülü olardı əvvəllər. Dədə-babadan Şahbuz şəhərindəki arxa bir qətrə su vurulmadığından o, "quru" ləqəbini qazanmışdı. Buna görə də yüzillik ağaclar quruyar, kərdi-külədən bar-bəhər götürmək çətin olardı. Amma indi bağımızı, bostanımızı suvarmaq dərdini çəkmirik. Bir vaxtlar bu, bizim üçün böyük dərd idi. İndi dağın, dərənin suları havayı axıb getmir. Dövlət qayğısı ilə suvarma suları kəndimizə, şəhərimizə gətirilir, taxılçılıq, yemçilik, meyvə-tərəvəzçilik sahələrindən bol məhsul toplanılır. Subartezian quyuları, kəhriz və yaxşı tutuma malik arxlar və nasoslar vasitəsilə mövsüm ərzində əkinləri suvara bilirik. Sevinirik ki, indi artıq ən ucqar dağ kəndlərimizdəki qədim və unudulmuş arxların hamısı bərpa edilib. Artıq içməli suda olduğu kimi, suvarma suyunda da çətinliyimiz yoxdur. Bu, məni bir kənd sakini kimi çox sevindirir".

Bir zəhmət adamını bu qədər sevindirən dövlət tərəfindən həyata keçirilən irimiqyaslı layihələrin nəticəsidir. Deməli, kənd təsərrüfatının hərtərəfli inkişafı məqsədilə muxtar respublikamızda qəbul olunmuş dövlət proqramları, sözün həqiqi mənasında, zəhmət adamının qarşılaşdığı problemləri kökündən həll edir. Həmçinin yaxşı yaşayış, sağlam olmaq, çəkilən zəhmətin müqabilində bol məhsul götürmək, ekoloji tarazlığı qorumaq üçün də bu sənədlər yol xəritəsidir. Maraqlıdır, dövlət proqramları qəbul olunmamışdan əvvəl hansı ab-hava hökm sürürdü?

### *Keçmişə nəzər salaq*

Ötən əsrin sonlarında baş verən məlum hadisələrdən sonra həyatımızın hər bir sahəsində mizan pozuldu, tərəzi əyildi. Əkinçi əkindən, taxılçı taxıldan, fəhlə də öz işindən üz çevirdi. Lakin əli işdən soyuyan insanların tələbatı dəyişmədi. Həmin tələbatları dəyişməyən insanlar ötən əsrin 90-cı illərində əlini ağdan qaraya vurmaq istəmirdilər. İnsanlarda sanki bir laqeydlik, arxayınlıq yaranmışdı. "Ver yeyim, ört yatım, gözlə canım çıxmasın" prinsipi şüurlara hakim kəsilən illərdə torpaqlarımız da əkinçi-biçinçi üzünə həsrət qalmışdı.

Bunun acısını da elə torpaqdan üz çevirən insanlar çəkirdilər. Süfrələr boşalmışdı. Bir dəstə göyərtiyə, bir qab tərəvəzə, bir vedrə meyvəyə həsrət qalan torpaq adamları günahı başqa yerlərdə axtarmağa başlamışdılar. Əvvəllər ovuc içi boyda torpaqdan bol məhsul götürən kənd sakinləri məlum hadisələrdən sonra bazar, dükan axtarışına çıxıb daha ucuz məhsul almağa çalışır, kartof, soğan ardınca hətta başqa yerlərə üz tuturdular. Altı da, üstü də xəzinə olan torpaqlar, beləcə, hər yerdə dəmyə qaldığından qızıl kimi əkin sahələri tikan-qanqal məskəninə çevrilmişdi. Həmin illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda kənd təsərrüfatı digər sahələrə nisbətən geri qalırdı. Amma ulu öndərin böyük uzaqgörənliklə həyata keçirdiyi siyasət nəticəsində torpaq islahatlarının məqsədyönlü şəkildə aparılması muxtar respublikada aqrar sahənin inkişafında əsaslı dönüş nöqtəsi oldu. Təəssüflər olsun ki, bəzən sevinə-sevinə torpaq sahibi olan insanlar onu çəpərləməklə işlərini bitmiş hesab etdilər. Əkilməyən boş torpaq sahələri otlaqlara çevrildi. Bəlkə elə buna görə də əkinçilikdə elə bir irəliləyiş nəzərə çarpmırdı. İnsanların bu süstlüyünün, laqeydliyinin aradan qaldırılması üçün dövlət proqramlarının qəbulu bu sahədə böyük dəyişikliyə təkan verdi.

### *Bugünkü mənzərə*

Elimizdə belə bir məsəl var: "Qonşu qonşuya baxar, özünü oda yaxar". Qonşusunun çox işləyib, yaxşı məhsul götürüb, qazanc əldə etdiyini, müasir mənzil sahibi olduğunu, gəlirinin artdığını görən başqa bir qonşu da qol çırmayıb işə girişdi. Getdikcə elə bil ki, kənd sakinlərinin gözü açıldı. Sanki dünənə kimi "bacarmıram, bilmirəm, satammıram, əkəmmirəm" bəhanələri ilə işdən boyun qaçıranlar bunlar deyilmişlər. Torpağa mehr salmaqla yaxşı qazanc əldə edənləri görənlər yaxşı da dolanışıq yolunun elə torpaqda olduğunu şəksiz, şübhəsiz, dərk etdilər. İndi artıq torpaqları qarış-qarış ölçüb-biçib əkən kənd adamları torpağa alın təri axıdıb əvəzində tonlarla məhsul yığırlar. Zəhmət çəkən hər kəsə məhsulunu



yığmaqda, satmaqda dövlət səviyyəsində hər bir şəraitin yaradılması bu tendensiyanı gücləndirib, sahibkarlığın hərtərəfli inkişafına təkan verib. Nəticədə, dünənə kimi kartof, soğan, meyvə, tərəvəz ardınca dükan, bazarlara üz tutanlar indi artıq ilboyu məhsul satır, qazanc əldə edirlər.

Müxtəlif sahələrin inkişafı üçün kəndliyə maddi dəstək göstərilməsi, güzəştli şərtlərlə kreditlər verilməsi, toxum, gübrə, yanacağın dövlət tərəfindən təminatı da qəbul olunmuş dövlət proqramlarında qarşıya qoyulmuş çox mühüm vəzifələr kimi öz həllini tapıb.

Əkinçinin sağ əli olan maşın-mexanizmlərin əlverişli şərtlərlə icarəyə verilməsi də kənd təsərrüfatının inkişafına və yerli məhsulların istehsalının artırılmasına göstərilən qayğının təzahürüdür. Məhsul istehsalını artırmaq üçün aqrar sahəyə dövlət tərəfindən bu qədər yüksək səviyyədə dəstək göstərilməsi, vəsait xərclənməsi, şərait yaradılması qarşılığında kənd zəhmətkeşləri də tənbəllikdən uzaqlaşaraq daha çox işləməklə yaxşı məhsul əldə etməyə səy göstərirlər. Bu gün dünyada baş verən proseslər göstərir ki, yaxşı yaşamağın, sağlam olmağın, uzunömürlülüyün, güclü iqtisadiyyatın əsas mənbəyi torpaqdır. Dünyanı ağuşuna alan ərzaq problemləri də bunun təsdiqidir.

Əgər bu gün Şahbuz rayonunda əlli minə yaxın üzüm qələmi əkilib, ona qulluq göstərilirsə və gələn il həmin körpə fidanlar üzüm bağları üçün hazırlanan sahələrə əkiləcəksə, deməli, bir neçə ildən sonra bu bağlardan yığılan tonlarla məhsul ailələrin illik tələbatını ödəyəcək vəsaitə çevriləcək. Həmçinin keyfiyyətli və dadlı üzüm sortlarından çeşid-çeşid məhsullar hazırlanaraq süfrələrimizi bəzəyəcək. Həm sağlamlığımıza, həm də yaxşı yaşayışımıza öz təsirini göstərəcək. Bu da üzümçülüklə bağlı qəbul olunmuş dövlət proqramının qarşıya qoyduğu vəzifələrin təkcə Şahbuz rayonunda yaratdığı mənzərədir.

### *Nə əkərsən, onu da biçərsən*

Məlumdur ki, muxtar respublikamızda həyata keçirilən yaşıllaşdırma tədbirləri sayəsində yüz hektarlarla meyvə bağları salınıb. Yerli məhsulların istehsalını artırmaq üçün sahibkarlara dəstək göstərilir, istehsal müəssisələrinin fəaliyyətinə stimul yaradılır. Əkilən torpaqlar, salınan yeni bağlar, fəaliyyətə başlayan istehsal müəssisələri muxtar respublikamızda indi yüzlərlə adda yerli məhsulun bazara çıxarılmasına səbəb olub, həm də yüzlərlə insan üçün yeni iş yerləri yaradıb. Qazancın yaxşı olması alıcılıq qabiliyyətinin də artması deməkdir. Bu isə ailələrin yaxşı yaşayışına, maddi təminatının güclənməsinə, ümumilikdə isə iqtisadiyyatın şaxələnməsinə və inkişaf tempinin artmasına gətirib çıxarır. Bütün bunlar deməyə əsas verir ki, muxtar respublika sakinləri artıq yaxşı yaşamağın, bolluğun, ucuzluğun yolunu tapıblar. İndi ən ucqar dağ kəndlərindən başlayaraq üzüaşağı – şəhər və qəsəbələrimizə qədər göz işlədikcə görünən hektarlarla torpaq sahələrinin bir qarışını belə, boş qoymayan zəhmətkeşlər torpağın dəyərini, qədrini bilirlər. Onu istədikləri kimi əkir, biçir, istehsal edir, məhsulu satır və qazanırlar. Çəkilən zəhmətin hədər getməməsi üçün artıq muxtar respublikamızda torpaqların təyinatı üzrə istifadəsi məqsədilə atlasların hazırlanması da əkinçinin daha çox və keyfiyyətli məhsul istehsal etməsinə zəmin yaradır. Sevindirici haldır ki, indi tək Naxçıvan yox, respublikamızın başqa yerlərində də bazarlarda Naxçıvan məhsulları adla deyilir. Naxçıvanın istər meyvəsi, tərəvəzi, əti, südü, pendiri, istərsə də təbii sərvətlərimizdən olan mineral suları, yabanı tərəvəzləri hər yerdə əl-əl gəzir. Hətta xarici ölkələrdə belə, bu məhsulların böyük alıcı kütləsi olduğu məlumdur. Belə olan halda heç kimin dolanışıqdan gileygüzar etməyə haqqı yoxdur. Çünki muxtar respublikamızda torpaq mülkiyyətçilərinə ən yüksək səviyyədə dəstək göstərilməsi, onlara şərait yaradılması danılmaz bir faktdır.

Ən ucqar dağlıq rayon olan Şahbuzda belə, istənilən sakinin hər hansı bir istehsal müəssisəsi açması, təsərrüfat sahəsi yaratması, kiçik sahibkarlıqla məşğul olması üçün dövlət tərəfindən dəstək göstərilməsi dediklərimizin sübutudur. Bunun nəticəsidir ki, bir vaxtlar bir istehsal müəssisəsi olmayan Şahbuzda indi quşçuluq, balıqçılıq, arıçılıq, heyvandarlıq, maldarlıq sahələri ilə yanaşı, həm də çörək, su, bal istehsal edən müəssisələr də fəaliyyət göstərir. Yaradılan şəraitdən istifadə edərək zəhmətə qatlaşanlar həm dövlət siyasətinə dəstək olur, həm də yaxşı yaşamaq, övladlarının gələcəyi, arzularının reallaşması üçün təminat yaradırlar.

***P.S.*** *Kəndli qardaş, atalarımız demişkən, gəl əyri oturaq, düz danışaq. Sən özün torpağa əyilməsən, o, sənə yaxın gəlməz. Sən yaxşı bilirsən ki, istifadənizə verilən bu qədər maşın-mexanizmlərin milyon manatlarla dəyəri var. Hələ məhsuldar toxumu, gübrəni, yanacağı demirəm. Bütün bunlar dövlət dəstəyi ilə evinin içindəcə sənə verilirsə, deməli, sən də gecəni gündüzə qatıb işləməlisən. Atalarımız demişkən, "Nə əkərsən, onu da biçərsən".*

**Şəhla NƏBİYEVA**
***jurnalist***

# Müəllim adı şərəfli olduğu qədər də məsuliyyətlidir

## Gənc müəllimlər bu adı həmişə uca tuturlar

*Hər bir ölkənin inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa gələcəyin etibarlı təminatı olan kadr hazırlığından asılıdır. Məhz buna görə də bu gün Azərbaycanda gənc kadrların hazırlanmasına, onların işlə təmin olunmasına xüsusi diqqət yetirilir.*



Ulu öndər Heydər Əliyev həmişə gənc nəslə böyük ümidlər bəsləyib, gənclərlə görüşlərində, mötəbər tədbirlərdəki çıxışlarında bildirib ki, Azərbaycanın gələcəyi olan gənclərin hərtərəfli yetişdirilməsi, təhsil alması ən vacib və zəruri məsələlər sırasındadır. Bu işdə təhsil ocaqlarının və müəllimlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyev çıxışlarında bu peşə sahiblərinə daim yüksək qiymət verib. O deyib: ***"Mən dünyada müəllimdən yüksək ad tanımıram. Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq".***

Müəllimlər şagirdlərin dərin və hərtərəfli təhsil almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, bəlkə də, ondan daha çox, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən böyük məsuliyyətdir. Müəllim hər bir hərəkəti ilə örnək təşkil edir, onun biliyi, təcrübəsi şagirdin yaxşı təhsil almasında əsaslı rol oynayır. Belə müəllimlərdən biri də Sədərək kənd 1 nömrəli tam orta məktəbin tarix müəllimi Vurğun Əsgərlidir.

Vurğun Əsgərli 1995-ci ildə Şərur rayonunun Çərçiboğan kəndində dünyaya göz açıb. O, orta məktəbdə təhsil aldığı müddətdə şagirdlər arasında seçilib, keçirilən müxtəlif olimpiadalarda, viktorinalarda, digər bilik yarışmalarında iştirak edərək yaxşı nəticələr qazanıb. Ali məktəblərə qəbul imtahanında Vurğun 500-dən yuxarı bal toplayaraq Bakı Dövlət Universitetinə qəbul olunub. İmtahanda yüksək nəticə göstərdiyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən mükafatlandırılıb.

Tələbəlik həyatına başlayan gündən Vurğunun qarşısında geniş perspektivlər açılıb. O, qısa vaxt ərzində universitetdə öz bilik və bacarığına görə seçilib. Tələbəlik illərində təkcə tarix elmi ilə deyil, politologiya, iqtisadiyyat, sosiologiya, psixologiya, siyasi iqtisad, beynəlxalq münasibətlər və digər mühüm idarəetmə fənləri ilə də dərindən maraqlanıb, bu elmlərə aid məqalələr yazıb. Exus Business Condulting & Trainingin təşkil etdiyi "Şüuraltı təsir" layihəsini, Azərbaycan Milli QHT Forumunun Gənclər Departamenti tərəfindən təşkil edilmiş "Motivasiya", "Kariyera quruculuğu", "Natiqlik", "Bədən dili", "Liderlik" layihələrini, MK Təlim Klubunun təşkil etdiyi "Qazanmaq 3 şey istər" və digər bu kimi proqramları uğurla başa vurduğuna görə sertifikat, diplom, fəxri fərmanlar alıb.

O, hələ tələbə ikən ulu öndər Heydər Əliyevin siyasi xətti, dövlətçilik və millilik əsasları istiqamətində fəaliyyət göstərən, iki mindən çox üzvü olan Gənc Vətənpərvərlər Birliyinin İctimai-siyasi şöbəsinin müdiri təyin edilib, "Narkotiklərə yox deyək", "Vətən and yerimizdir", "Təbiəti qoruyaq", "Gənclərdə milli hisslərin gücləndirilməsi", "Ana dilimizə qayğı göstərək" və digər bu kimi layihələrin hazırlanıb həyata keçirilməsində fəallıq göstərib, buna görə birlik tərəfindən fəxri diplomla təltif olunub. Öz intellekt və istedadı ilə seçilən gənc müəllim 2015-ci ildə keçirilən İslam Əməkdaşlıq Təşkilatı Gənclər Təşkilatının tərtib etdiyi silsilə müharizələrdə iştirak edib, həmin qurumun 54-cü iclasında çıxış edib, beynəlxalq səviyyəli sertifikatla təltif olunub.

Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə 2014-cü ildə ali məktəb tələbələri üçün "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, mərhələləri və həlli perspektivləri" proqramı üzrə kursda Vurğun Əsgərli də fəal iştirak edib. Bu məqamda qeyd edək ki, Bakı Dövlət Universitetinin 20 minə yaxın tələbəsi arasından bu kursda iştirak etmək üçün seçilən 20 tələbədən biri də Vurğun olub.

Vurğun Əsgərlini digər tələbə və gənclərdən fərqləndirən ən mühüm keyfiyyətlərindən biri onun hələ tələbə olarkən cəmiyyət həyatı ilə bağlı çoxsaylı fəlsəfi, publisistik məqalə yazmasıdır. Onun məqalələri müxtəlif qəzet, jurnallarda çap olunub, saytlarda yerləşdirilib. Müəllif sonralar bu məqalələri kitab şəklində çap etdirib. Vurğun bu fəaliyyətinə görə "Hər bir azərbaycanlı Vətənimizin bu günü və sabahıdır" layihəsi əsasında "Gənc yazar" adına layiq görülüb.

Vurğun Əsgərli ali məktəbi bitirdikdən sonra 2016-cı ilin sentyabr ayında öz istəyi ilə sərhəd bölgəmiz olan Sədərək rayonunun Sədərək kənd 1 nömrəli tam orta məktəbində tarix müəllimi kimi fəaliyyətə başlayıb. Fəaliyyət göstərdiyi qısa zamanda həm kollektivin, həm də şagirdlərin böyük rəğbətini qazanan müəllimlə həmsöhbət olduq. Ona bu sualla müraciət etdik:

*–Hələ tələbə ikən uğurlara imza atmısınız. Müəllim olmaq sizin üçün son məqsəddirmi? Başqa sahələrdə də çalışmaq istərdinizmi?*

– Mən hər zaman elmdən gəldikcə geniş məlumatlar əldə etməyə, elm öyrənməyə, araşdırmağa səy göstərmişəm. Əldə etdiyim bilikləri şagirdlərə öyrətmək isə mənim ən böyük arzum olub. Bu gün həmin arzuma çatmışam. Mənim üçün önəmli olan hansı sahədə çalışmağımdan asılı olmayaraq öz ölkəmə, xalqıma layiqincə xidmət etməkdir. ***"Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun"***, – deyən ulu öndərimiz Heydər Əliyev biz gənclər qarşısında tarixi bir vəzifə qoyub: ***"Hər bir Azərbaycan gənci, hər şeydən çox, hər şeydən artıq, müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".***

Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı Prezident cənab İlham Əliyevin gəncliyə verdiyi qiymətin göstəricisidir ki, bu gün Azərbaycan gəncliyi öz inkişafının yeni mərhələsindədir. Azərbaycan xalqı istedadlı, bacarıqlı gəncləri ilə fəxr etdiyi kimi, biz gənclər də azərbaycanlı olduğumuz üçün fəxr edirik.

Bəli, bu gün də ulu öndərin təhsilə, müəllimə qayğıkeş münasibəti dövlətimizin siyasətində önəmli yer tutur və gənc müəllimlərimiz də bu qayğıdan bəhrələnirlər. Dövlət başçısının sərəncamı ilə hər il "Ən yaxşı müəllim" müsabiqəsi keçirilir. Qalib müəllimlərimiz mükafatlandırılır. Muxtar respublikamızın ucqar kəndlərində yaşayan müəllimlərimizə xüsusi müavinətlər verilir. Bu gün qədim diyarda fəaliyyət göstərən müəllimlər 20 il əvvəl olduğu kimi uçub dağılmış, təmirsiz məktəblərdə dərs demirlər. Onlar üçün çox gözəl, rahat şərait yaradılıb, indi müəllimlərimiz müasir standartlara uyğun, hər cür şəraiti olan yeni məktəblərdə işləyirlər. Onlar təhsilin keyfiyyətini yüksəltmək, gələcəyin sağlamdüşüncəli qurucularını yetişdirmək üçün səylə çalışırlar.

**Fatma BABAYEVA**

# AMEA Naxçıvan Bölməsində Rəyasət Heyətinin növbəti iclası keçirilib

Tədbiri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.



Sonra bölmənin Bioresurslar İnstitutunun Torpaq ehtiyatları laboratoriyasının rəhbəri, dosent Sahib Hacıyevin "Naxçıvan Muxtar Respublikası torpaqlarının tədqiqi və mədəni-təbii bitkilərə yararlı torpaqların qiymətləndirilməsi" mövzusunda elmi məruzəsi dinlənilib. Sahib Hacıyev ölkədə aqrar sektoru inkişaf etdirmək məqsədilə irimiqyaslı dövlət proqramlarının həyata keçirildiyini, bir sıra vacib dövlət sənədlərinin imzalandığını deyib.

Bildirib ki, aqrar sektorun inkişafında əsaslı rol oynayan torpaq ehtiyatlarından səmərəli istifadə etmək üçün yeni metodların köməyi ilə regionun torpaqları elmi əsaslarla öyrənilməyə başlanılıb. Tədqiqat işi Naxçıvan Muxtar Respublikası ərazisində 550 min 275 hektar sahəni əhatə edib və əkinəyararlı 162 min 391 hektar sahədə yem, taxıl, üzüm və tərəvəzaltı torpaqlar götürülüb. Torpaqların öyrənilməsi məqsədilə müəyyən edilən istiqamətlər üzrə 150-dən çox ekspedisiyaya gedilib.

Məruzəçi aparılan tədqiqatlar əsasında Naxçıvanın təbii, xüsusilə mədəni bitkilərin inkişaf etdiyi yararlı torpaqların ümumi sahəsinin müəyyənləşdirildiyini, orta məhsuldarlığın və qiymət ballarının hesablandığını bildirib.

Məruzə dinlənildikdən sonra Rəyasət Heyətində müzakirə olunub və gələcəkdə aparılacaq tədqiqatların elmi səmərəliliyini yüksəltmək üçün laboratoriya rəhbərinə müvafiq tapşırıqlar verilib.

İclasda akademik İsmayıl Hacıyev "Azərbaycan Respublikası iqtisadiyyatının əsas sektorları üzrə strateji yol xəritələri"nin icrası ilə bağlı fəaliyyət proqramı barədə iştirakçılara məlumat verib. Müzakirələrdən sonra 17 bölmədən ibarət əsasnamə Rəyasət Heyətində təsdiq olunub.

İsmayıl Hacıyev cari ildə də qədim yaşayış yerlərinin tarixinin öyrənilməsi, arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət nümunələrinin elmi cəhətdən təhlil olunması, qədim folklor nümunələrinin toplanması, bitki və heyvanlar aləminə aid zəngin materialların, faydalı bitkilərin müəyyənləşdirilməsi, o cümlədən tədqiqat işlərinin nəticəsi olaraq ümumiləşdirici əsərlərin, monoqrafiyaların və kitabların hazırlanıb çap etdirilməsinin vacibliyindən danışıb. Akademik Naxçıvan ərazisində müvafiq elmi ekspedisiyaların təşkili və keçirilməsi ilə bağlı institut direktorlarına tapşırıqlar verib.

Daha sonra bölmənin şöbə və laboratoriyalarına alınan müasir cihaz və avadanlıqların vəziyyəti barədə Elmi təşkilat şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov çıxış edib.

Sonda bir sıra cari məsələlər müzakirə olunub.

# Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunmuş elmi konfrans

*AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda 22 may – Beynəlxalq Biomüxtəliflik Günü ilə əlaqədar elmi konfrans keçirilib.*

Naxçıvan Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi ilə birgə keçirilən tədbiri bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov açıb. Akademik biomüxtəlifliyin mövcud vəziyyəti barədə danışıb, ölkədə bioloji müxtəlifliyin qorunması istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən, bölmənin Bioresurslar İnstitutunun apardığı tədqiqatlardan ətraflı bəhs edib.

Sonra institutun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, dosent Varis Quliyevin "Naxçıvan Muxtar Respublikasının meyvə və giləmeyvə bitkilərinin biomüxtəlifliyinin ərzaq təhlükəsizliyinin təminatında rolu", Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Şövqi Əliyevin "Naxçıvan Muxtar Respublikasında biomüxtəlifliyin qorunması", Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekan müavini, dosent Hilal Qasımovun "Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyində yabanı tərəvəz bitkilərinin rolu" mövzusunda məruzələri dinlənilib.

Daha sonra Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, professor Əliyar İbrahimov, dosent İsmayıl Məmmədov, dosent Ənvər İbrahimov, Zooloji tədqiqatlar şöbəsinin müdiri, dosent Akif Bayramov və Torpaq ehtiyatları laboratoriyasının müdiri Sahib Hacıyev çıxış edərək Naxçıvan Muxtar Respublikasında biomüxtəlifliyin qorunması istiqamətində görülən işlərdən söz açıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən kompüter bilikləri müsabiqəsi başa çatıb



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin birgə təşkilatçılığı ilə muxtar respublika üzrə ümumtəhsil məktəblərinin şagirdləri arasında kompüter bilikləri müsabiqəsi keçirilib.

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində keçirilən müsabiqədə muxtar respublikanın şəhər və rayon məktəbləri üzrə 16 şagird iştirak edib.

Əvvəlcə mərkəzin direktoru Vüqar Rəsulov, direktor müavini Nəriman Sadıxov və Təhsil Nazirliyinin əməkdaşı Anar Mirzəyev müsabiqənin məqsəd və vəzifələrindən danışıblar. Çıxışlarda bildirilib ki, müsabiqənin təşkilində əsas məqsəd uşaq və gənclərin informasiya-kommunikasiya texnologiyalarına marağının və biliklərinin artırılması, onların istedadlarının aşkara çıxarılması, asudə vaxtlarının səmərəli təşkilindən ibarətdir.

Müsabiqədə şagirdlərə "Windows", "Word", "Excel" proqramları və internet şəbəkəsinə dair test sualları təqdim olunub.

Sonda münsiflər tərəfindən müsabiqənin qalibləri müəyyənləşdirilib. Beləliklə, I yerə Culfa rayon Yaycı kənd 1 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Elgün Hüseynli, II yerə Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Cavid Əliyev, III yerə isə Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Rəbbi Səfərli və Ordubad rayon internat məktəbinin 11-ci sinif şagirdi Hüseyn Abdullabəyli layiq görülüblər. Qaliblər diplom, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Müsabiqədə həvəsləndirici yerləri tutan şagirdlərə isə genişzolaqlı internet kartları hədiyyə olunub.

**Gülcamal TAHİROVA**

# Naxçıvan Qızlar Liseyi və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanları olub

***Hər iki təhsil müəssisəsinə qəbul imtahanları mayın 21-də "İstedad-XXI əsr" kursları tərəfindən Naxçıvan Dövlət Texniki Kollecinin inzibati binasında keçirilib. Test formasında, mərkəzləşmiş qaydada keçirilən imtahanlarda hər bir iştirakçıya 100 sual təqdim olunub, sualların cavablandırılmasına 2 saat 30 dəqiqə vaxt ayrılıb.***

Nəticələr imtahan keçirildikdən 3 gün sonra ***www.istedad21.com*** internet saytında açıqlanacaq. Hər iki liseyə daxil olmaq üçün sənəd verən və imtahanda yüksək nəticə göstərən ilk 60 nəfər məktəbin şagirdləri sırasına qəbul ediləcəkdir.

Qeyd edək ki, 2017-2018-ci tədris ili üçün Naxçıvan Qızlar Liseyi və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə sənəd qəbulu hər iki təhsil ocağında bu il aprelin 1-dən mayın 5-dək aparılıb. Muxtar respublikanın şəhər və rayonlarından bu müəssisələrdə təhsilini davam etdirmək istəyən cari ildə VI sinifdə oxuyan 379 oğlan şagird Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə, IV sinifdə oxuyan 159 qız şagird isə Naxçıvan Qızlar Liseyinə sənədlərini təqdim ediblər.

***Xəbərlər şöbəsi***

# Asudə vaxtımızın əvəzolunmaz ünvanı – Əyləncə və İstirahət Mərkəzi

***Son illər muxtar respublikamızda insanların asudə vaxtlarını səmərəli keçirməsi, istirahət günlərini mənalı yaşaması məqsədilə gözəl ünvanlar yaradılır. Xüsusən əvvəllər yay günlərində bu məqsəd üçün başqa yerlərə üz tutan vətəndaşlar indi buna ehtiyac duymurlar. Belə istirahət ünvanları arasında “Əyləncə adası” adı ilə tanınan Əyləncə və İstirahət Mərkəzi xüsusi imic qazanıb. Naxçıvançay vadisində yerləşən bu yer bütün naxçıvanlıların sevimli məkanına çevrilib.***



Ötən günlərdə adıçəkilən ünvanda böyük coşqunun şahidi olduq. Əyləncə və İstirahət Mərkəzinin direktor müavini Vüqar Məmmədov bizimlə söhbətində bildirdi ki, ümumi sahəsi 38 min kvadratmetr olan bu istirahət obyekti 2014-cü ildə istifadəyə verilib. Ərazidə inşa edilmiş ikimərtəbəli binanın birinci mərtəbəsində “Lavazza” və “Mado” kafeləri, uşaq və böyüklərin asudə vaxtlarının səmərəli təşkili üçün müasir oyun avadanlıqlarının quraşdırıldığı oyun salonu və fotoxidmət fəaliyyət göstərir. Burada həmçinin dünyanın tanınmış geyim firmaları məhsullarının satışı mağazası da yerləşir. Binanın ikinci mərtəbəsində isə yerli və xarici mebel dəstləri, çilçıraq və pərdə satışı bölmələri fəaliyyət göstərir. Geyim və yaxud məişət əşyalarının satıldığı ticarət obyektlərinə gedə bilməyən insanlar istirahətlə birlikdə bu imkanlardan rahat istifadə edə bilərlər. Əyləncə və İstirahət Mərkəzinin həyatında 33 metr hündürlüyündə 24 kabinəli 144 yerlik karusel, 8 yerlik 120 dərəcəli disko, qüllə və ətrafında qatar, uşaqlar üçün nəzərdə tutulmuş 5 idman qurğusu və genişekranlı monitor vardır. Ərazidə 1 fəvvarə və 4 hovuz yaradılıb. Böyüklər üçün kafe və peyntbol meydançasının olması istirahəti daha maraqlı edir.





Vüqar Məmmədov onu da bildirdi ki, buraya gələnlər ərazidəki attraksionlardan istifadə üçün nəzərdə tutulan, üzərində “Əyləncə adası” yazılmış plastik kart da əldə edirlər. Kartın müsbət cəhətləri vaxt itkisinin qarşısının alınması və əlavə bonusların əldə edilməsidir. Ərazidə 500 avtomobildən artıq tutumu olan dayanacaq da fəaliyyət göstərir.

Mərkəzin həyatında yeni səhnə də qurulub ki, burada mövsüm ərzində müxtəlif konsert proqramları təşkil olunur. Təqdirəlayiq haldır ki, həmin səhnədə bir çox tanınmış yerli və xarici müğənnilərin konsertləri yüksək səviyyədə keçirilir. Bu səhnədə iyun ayının 11-də 15 İyun – Milli Qurtuluş Günü ilə bağlı geniş konsert proqramı təşkil olunacaq. Bilet əldə edənlərə hədiyyə kuponları da veriləcək.

Son günlər mərkəzə gələnlərin sayında xeyli artım müşahidə olunur. Xüsusilə axşam saatlarında bu, daha çox nəzərə çarpır. “Əyləncə adası”na gələnlər arasında uşaqlarla bərabər, böyüklər də az deyil. Culfa rayon sakini Səlvər Baxşəliyev öz ailəsi ilə Əyləncə və İstirahət Mərkəzinə gəlib. O, yaradılmış şəraitdən məmnunluqla danışır: “Hər il ailəmizlə mütəmadi olaraq istirahət edirik. Bu il də tez-tez gəlirik. Buranı istirahət ünvanı seçərkən uşaqların istəklərini nəzərə alsaq da, bizim üçün də sərfəli olduğunu bilirdik. Avtomobili saxlamaq üçün ərazidə dayanacağın olması, bağlı və açıq məkanlarda ailəlikcə oturub çay, kofe və sərin içkilər içmək, söhbət etmək imkanı yaradılması bizi bu yerə çəkən cəhətlərdir. Çox şadıq ki, şəhərimizdə belə istirahət məkanı yaradılıb. Ailəmiz adından bu şəraiti yaradanlara öz minnətdarlığımızı bildiririk”.

Növbəti müsahibimiz Naxçıvan şəhər sakini Tural Quliyevdir. O da bu yerin imkanlarından razılıqla danışır: “Əvvəlki illərdə xarici ölkələrdə, xüsusilə Türkiyədə istirahətdə olmuşam. Bu yerə dostlarımın təkidi ilə gəldim. Açığı, bu cür gözəl şəraitlə qarşılaşacağımı və mənalı gün keçirəcəyimi gözləmirdim. Burada olmağımdan çox şadam. Gələcəkdə də tez-tez gəlməyi düşünürəm. Məni bu yerə gəlməyə həvəsləndirən dostlarıma və bu imkanları bizə yaradan hər kəsə minnətdaram”.

Mərkəzdə olarkən xarici vətəndaşlar da diqqətimizdən yayınmadı. Türkiyə vətəndaşı Hakan Özsoyla həmsöhbət olduq. O bildirdi ki, əvvəllər də Naxçıvana gəlib: “Naxçıvana axırıncı dəfə 4 il bundan əvvəl gəlmişdim. O vaxtdan elə çox zaman keçməsə də, şəhəriniz çox gözəlləşib. Əyləncə və İstirahət Mərkəzinə birinci dəfədir, gəlirəm. Burada olan hər şey tam müasir standartlara uyğundur. Təhlükəsizliyimiz də tam təmin olunub”.

Bəli, bu gün Əyləncə və İstirahət Mərkəzində görüşüb söhbət etdiyimiz hər kəs yaradılan gözəl şəraitdən ağızdolusu danışdı. Bu məkanın təkcə uşaqlara deyil, böyüklərə də xoş təsir bağışladığını dedilər. Müşahidələrimizdən o da aydın oldu ki, buraya təkcə muxtar respublikanın bölgələrindən deyil, xarici ölkələrdən də xeyli turistlər gəlir və bu da, təbii ki, çox sevindiricidir. Söhbətlərimiz zamanı onlar Naxçıvan ərazisinin təmiz havasından, bu məkanda göstərilən xidmətdən, yaradılan şəraitdən razılıqla danışdılar. Biz də gələcək yay mövsümündə hər bir muxtar respublika sakininə bol əyləncəli, mənalı istirahət arzulayırıq.

**Nail ƏSGƏROV**

## “Bioloji təbabətin aktual problemləri” mövzusunda elmi-praktik seminar

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Bakı şəhərində fəaliyyət göstərən “Bioloji təbabət” klinikası, Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyətinin təşkilatçılığı ilə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında “Bioloji təbabətin aktual problemləri” mövzusunda elmi-praktik seminar keçirilib.***



Tədbiri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev açıb. O bildirib ki, səhiyyə sisteminin günün tələblərinə uyğunlaşdırılması, müasir tibb infrastrukturunun yaradılması muxtar respublikada həyata keçirilən sosial islahatların tərkib hissəsidir. Bunun nəticəsidir ki, istər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ kəndlərində əhaliyə nümunəvi tibbi xidmət göstərilir. Tibb müəssisələri üçün yeni binalar tikilir, səhiyyə ocaqları müasir avadanlıqlarla təchiz edilir. Həmçinin həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə seminar və konfransların keçirilməsi diqqət mərkəzində saxlanılır. Keçirilən növbəti seminar da həmin tədbirlərin davamıdır.

Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyətinin prezidenti, tibb üzrə elmlər doktoru, professor Fikriyyə İbrahimova çıxış edərək müasir səhiyyə sistemində bioloji təbabətin getdikcə artan rolundan danışıb. Bildirib ki, 2009-cu ildən fəaliyyət göstərən “Bioloji təbabət” klinikası ölkəmizdə bioloji üsullarla müalicənin tətbiqini qarşısına məqsəd qoyub. Bioloji təbabət orqanizmin özünüidarə və müdafiə sistemlərinin pozulmuş funksiyalarını bərpa edən, baş verən həmin xəstəliklərin səbəblərinin aradan qaldırılmasına yönəldilən müasir müalicə metodudur. Bu müalicədə yalnız təbii tərkibli dərman preparatlarından istifadə olunur, müalicə zamanı digər orqan və sistemlər zədələnmir.

Tədbirdə “Selikli qişaların zədələnmə sindromu”, “Bioloji təbabətdə qocalığın profilaktikası və terapiyası” mövzularında mühazirələr dinlənilib, slaydlar nümayiş olunub. Naxçıvan şəhəri, Babək, Culfa və Şahbuz rayon səhiyyə müəssisələri həkimlərinin iştirak etdikləri tədbirdə dinləyicilərin sualları cavablandırılıb, onlara bukletlər paylanıb.

Elmi-praktik seminar digər rayonlarda da keçiriləcək.

# “Balaca şahzadə” Naxçıvan səhnəsində

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Uşaq Teatrının görkəmli fransız yazıçısı Antuan dö Sent Ekzüperinin “Balaca şahzadə” alleqorik nağıl-povesti əsasında hazırladığı tamaşanın premyerası olub.***





Tamaşanın əsas mövzusu balaca şahzadənin yeddi kiçik planetə səyahətindən ibarət fantastika, alleqoriya və gerçəklik arasında real həyat epizodları üzərində qurulub. Görkəmli yazıçının insanlara səmimi münasibəti, həyatın gözəlliklərini görmək duyğuları, anlaşma və xeyirxahlıq fikirləri əsərin əsas leytmotividir. Tamaşada balaca şahzadələri Nurbəniz Niftəliyeva və Rəhman Abbasov canlandırırlar.

Nağılın süjeti çox sadədir. V-612 astereoidindən gələn balaca şahzadənin məqsədi tamaşaçını da düşündürür. Kainatı səyahət edib, nəhayət, Yerə gələn balaca şahzadənin ümidi insanlar arasında əsl məhəbbəti və dostluğu görməkdir. Yerə gələnə qədər 6 planetdə şöhrətpərəst, işbaz, fənərçi və başqa-başqa insanlarla rastlaşan balaca şahzadə maraqlı və real həyat epizodları ilə qarşılaşır. Şahzadənin tamaşada qarşılaşdığı obrazlarla olan dialoqları həm balacaları, həm də böyükləri düşündürən mövzularla zəngindir. Yer kürəsində Tülkü ilə rastlaşan balaca şahzadənin söhbəti maraq doğurur. Tülkü balaca şahzadəyə həyati əhəmiyyətli məsələlərdən söhbət açır. Yazıçının balaca şahzadənin tamaşadakı obrazlarla münasibəti, fəlsəfi fikirləri olduqca maraq doğurur. İlan, Tülkü, Qızılgül, başqa surət və personajlara münasibətdə bunu aydın görürük. Tamaşadakı bu personajların hamısı maraq yaradır.

Vəli Babayev (Pilot), Mehri Nəbiyeva (İlan və Qızılgül), Heyran Abdullayeva (Tülkü), Uğur Nəsirli (Dəmiryolçu), Coşqun Əliyev (Ovçu) rollarının öhdəsindən bacarıqla gəlirlər. Azərbaycan Respublikasının Əməkdar artisti Behruz Haxverdiyev isə balaca şahzadənin rastlaşdığı tipləri (kral, şöhrətpərəst, əyyaş, işbaz, fənərçi, coğrafiyaşünas) maraqlı cizgilərlə təbii və canlı şəkildə tamaşaçıya təqdim edir. İlk baxışdan mürəkkəb görünən tamaşa, əslində, insana mənəviəxlaqi fikirlər aşıladığı üçün xoş təsir bağışlayır. Tamaşadakı rəqsləri Ayşən Məmmədova, Nuray Mikayılzadə, Şəfəq Budaqov, Aysu Həsənzadə, İlkanə Bayramova, Türkanə Bayramova ifa edirlər. Bir neçə peşəkar aktyor istisna olmaqla, əsasən, uşaqların iştirakı ilə ərsəyə gələn tamaşa maraqla qarşılanır.

Tamaşanın quruluşçu rejissorları Tofiq Seyidov və Nurbəniz Niftəliyeva, quruluşçu rəssamları Behruz Quliyev və Həbib Allahverdiyevdir. Tamaşanın rəqslərinə Humay Qafarova və Nurbəniz Niftəliyeva quruluş veriblər. Tamaşanın musiqi tərtibatçısı da Nurbəniz Niftəliyevadır.

Qeyd edək ki, “Balaca şahzadə” əsəri əsasında çoxsaylı cizgi filmləri, tamaşalar hazırlanıb. Azərbaycan Pantomima Teatrından sonra Naxçıvan Dövlət Uşaq Teatrının müraciət etdiyi “Balaca şahzadə” əsəri uşaqlar və böyüklər tərəfindən maraqla qarşılanır.

**Əli RZAYEV**

## Uşaqlar tibbi müayinədən keçirilib

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası Şahbuz rayonundakı Aşağı Qışlaq kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.

Həkim-ginekoloq, pediatr, LOR, endokrinoloq və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 30 nəfər uşağa tibbi xidmət göstərib, onlardan bəzilərinin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb, valideynlərlə səhiyyə maarifi işi aparılıb.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 428